AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

POLİS AKADEMİYASI

«**CİNAYƏT PROSESİ**» KAFEDRASI

ƏYANİ TƏHSİL

# M Ü H A Z İ R Ə

**Mövzu № 15**. «**Cinayət işlərinə, məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara və xüsusi ittiham qaydasında şikayətlərə ilkin baxılması».**

vaxt: 4 saat
müh: 2 saat
sem: 2 saat

**Tərtib etdi**: «Cinayət prosesi» kafedrasının baş müəllimi, polis polkovnik-leytenantı

**Anar Mikayılov**

Mühazirə kafedranın iclasında müzakirə olunub və təsdiq edilib.

PROTOKOL № ___ «____»_________2021-ci il

**BAKI – 2021**

## MÜHAZİRƏNİN PLANI:

***G İR İ Ş***

1. Cinayət işlərinə, məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara və xüsusi ittiham qaydasında şikayətlərə ilkin baxılmasının məqsədi və vəzifələri.

2. Məhkəmənin hazırlıq iclasında həll edilməli olan məsələlər.

3. Məhkəmənin hazırlıq iclasının keçirilməsi nəticəsinə dair məhkəmə tərəfindən qəbul edilən qərarlar.

***NƏTİCƏ***

***Ə D Ə B İ Y Y A T:***


1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 12 noyabr 1995-ci il, mad. 60-69, 71, 125-131.
2. Azərbaycan Respublikasının CPM-si, Bakı, 2014 –cü il.
3. Azərbaycan Respublikasının CM-si, Bakı, 2014cü il.
5. «Prokurorluq haqqında» Qanunu, Bakı, 7 dekabr 1999-cu il.
6. «Məhkəmələr və hakimlər haqqında» Qanun, Bakı 1997-ci il.
7. C.H.Mövsumov «Cinayət prosesi», Dərslik, Bakı,1989-cu il.
8. Mirağa Cəfərquliyev «Cinayət prosesi», Dərslik, Bakı, 2005-ci il.
9. S.V.Borodin «Uqolovnıy proses», Uçebnik, M 1982.
10. K.F.Qusenko «Uqolovnıy proses», Uçebnik dlya Vuzov, M. 1998, səh. 303-330.
11. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin Kommentariyası. «Digesta» nəşriyyatı. Bakı-2007.

**12.**Azərbaycan Respublikası DİN-in 03.11.2011-ci il tarixli 680 nömrəli əmri «Törədilmiş və ya hazırlanan cinayətlər və hadisələr barədə məlumatların qəbulu, qeydiyyatı və baxılması qaydaları haqqında Təlimatın təsdiq olunması barədə»

11.Azərbaycan Respublikası DİN-in 26.08.2011ci il tarixli 555 nömrəli əmri «DİN-in Baş İstintaq və Təhqiqat İdarəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə»

12.DİO-da təhqiqat fənnindən «Mühazirələr toplusu» adlı dərs vəsaiti Bakı, 2010

13. «DİO-da Təhqiqat» 10 sual 100 cavab adlı dərs vəsaiti. Bakı-2011.

15. DİO-da təhqiqat fənnindən “sxemlər albomu” adlı dərs vəsaiti. Bakı, 2013

14. Cinayət prosesi fənn proqramı Bakı 2018

15. Firuzə Abbasova “Cinayət prosesi” Dərslik. Ümumi hissə.Bakı 2021”Zərdabi LTD” MMC, 2012, 416 s.

16. Cinayət prosesi. Məsələlər Toplusu N.Əliyev, S.Ağayev, A. Mikayılov, İ.Eyyubov, V. Qasımov, Bakı: Mütərcim, 2014-216 səh.

# *G İ R İ Ş*

Sizə təqdim olunan mühazirə özündə 3 sualı əhat edir. Mühazirənin 1-ci sualında cinayət işlərinə, məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara və xüsusi ittiham qaydasında şikayətlərə ilkin baxılmasının əhəmiyyətindən və rolundan söhbət açılacaq. Sualda cinayət işlərinin birinci instansiya məhkəmələrinə daxil olması ilə əlaqədar görülən hazırlıq işləri qeyd olunur. Məhkəmənin ilkin hazırlıq hərəkətləri bir tərəfdən ibtidai araşdırma zamanı toplanmış materialları yoxlamaqdan, digər tərəfdən isə təqsirləndirilən şəxsi təqsirkar vəziyyətində hesab etmək üçün toplanmış materialların məhkəmədə baxılmasına şərait yaratmağa xidmət edir.

Məhkəmənin bu mərhələsinin əhəmiyyəti cinayət işlərinə açıq məhkəmə iclasında baxılması ilə əlaqədar Respublika Prezidentinin 22 fevral 1998-ci il tarixli «İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi haqqında» Fərmanının tələbindən irəli gələn vətəndaşların hüquqlarının əsassız olaraq, məhdudlaşdırılmaması üçün təminat yaratmaqdan ibarətdir.

Mühazirənin 2-ci sualı məhkəmənin ilkin hazırlıq iclasında həll edilməli olan məsələlərdən bəhs edir. Belə ki, bu məsələlər ibtidai araşdırma matierialları üzrə təqsirləndirilən hər bir şəxs haqqında ayrıca baxılmalı və müzakirə edilməlidir. Yalnız, həmin qrup məsələlərə iclasda iştirak edən cinayət prosesi tərəflərinin (ittiham və müdafiə) müsbət fikri olduqda, daxil olmuş cinayət işi məhkəmə baxışının predmeti ola bilər. Yəni bu məsələlər tam araşdırılıb və nəzərdən keçirildikdən sonra,

məhkəmə cinayət işinin məhkəmə baxışına çıxarılması haqqında qərar qəbul edir. Beləliklə, ikinci sualda biz Sizinlə məhkəmənin hazırlıq iclasında həll edilməli olan məsələlər üzərində ayrı-ayrılıqda dayanacayıq.

Nəhayət, mühazirənin 3-cü sualını məhkəmənin hazırlıq iclasının keçirilməsi nəticələrinə dair qəbul edilən qərarlara həsr etmişik. Burada məhkəmə tərəfindən qəbul edilən qərarların ayrı-ayrı növləri üzərində dayanmaqla, onların məhz hansı əsasa görə qəbul edilməsini izah edəcəyik.

Baxılan sualda məhkəmənin, hazırlıq iclasının nəticələrinə dair cinayət-prosessual qanunvericiliyin pozulması hallarına yol vermiş şəxslərin ünvanına çıxarılan xüsusi qərardan söhbət açılır. Həmin qərarda göstərilmiş vəzifəli şəxsin hansı hərəkətləri yerinə yetirilməsini və hansı müddətə icra edib, qərarı çıxarmış məhkəməyə məlumat verməsi də göstərilir.

Beləliklə, mövzu haqqında ümumi təsəvvürlər və araşdırılacaq süallara qısaca nəzər salsaq da mühazirə planının hər bir sualını ayrıca nəzərdən keçirək.

***SUAL 1. Cinayət işlərinə, məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara və xüsusi ittiham qaydasında şikayətlərə ilkin baxılmasının məqsəd və vəzifələri.***

Cinayət işlərinə, məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara və xüsusi ittiham qaydasında şikayətlərə ilkin baxılması mərhələsi cinayət prosesində mühüm mərhələlərdən biridir. Bu mərhələnin böyük siyasi və hüquqi əhəmiyyəti vardır. Məhkəmələrə daxil olmuş materiallar üzrə məhkəmənin ilkin hərəkətləri dedikdə, sözün geniş mənasında səlahiyyətli hakimiyyət orqanının təqsirləndirilən şəxsi təqsirkar vəziyyətində hesab etmək və onun haqqında olan işə məhkəmədə mahiyyəti üzrə baxmaq üçün təqsirləndirilən şəxs haqqında cinayət işində toplanmış materialın kifayət qədər olması barədə qəbul edilən qərarı başa düşülür.

Cinayət prosesində məhkəməyə daxil olmuş materiallara ilkin baxılma mərhələsinin, həmçinin prosessual əhəmiyyəti də vardır. Cinayət parosesində materiallara ilkin baxılma mərhələsi cinayət işlərinin açıq məhkəmə iclasında baxılması ilə əlaqədar vətəndaşların hüquqlarının əsassız olaraq məhdudlaşdırılması üçün təminat olmaqdan, hər bir cinayət işinin faktiki həmçinin, habelə məhkəmədə baxılmalı olan işin hüquqi qiymətinin dəqiq olaraq müəyyənləşdirilməsindən ibarətdir.

Cinayət-prosessual qanunvericiliyinə müvafiq olaraq, cinayət işləri üzrə ittiham aktının həddindən dürüst müəyyən edilməsi təqsirləndirilən şəxsin müdafiə hüququnun təmin olunmasına xidmət edir. Məhkəmə baxışının düzgün aparılması, onun tamlığına və qərəzsizliyinə, habelə hökmün qanuni və əsaslı olmasına imkan yaradır.

Materiallara ilkin baxmaq hüququ olan hakimiyyət orqanı cinayət-prosessual qanunvericiliyin əsasında təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və məhkəmə baxışının təyin edilməsi barədə məsələni həll edərkən, adətən, iş üzrə ibtidai araşdırmanı, məhkəməyədək sadələşdirilmiş icraat üzrə materialları və xüsusi ittiham qaydasında şikayətlərə baxan şəxsin hərəkətinin qanuniliyini və işə dair çıxardığı nəticələrin düzgünlüyünü də yoxlayır. Məhz, buna görə də materiallara ilkin baxılma mərhələsi cinayət prosessual hüquq elmində müstəqil mərhələ hesab olunur.

İbtidai istintaq orqanlarından daxil olan cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallar və xüsusi ittiham qaydasında şikayətlərlə əlaqədar olan işlər məhkəmə baxışına verilməzdən əvvəl, ümumi bir qayda olaraq, prosesin ilkin baxılma mərhələsində hakim tərəfindən bilavasitə yoxlanılır və təqsirləndirilən şəxsin məhkəməyə verilməli olub-olmaması müəyyənləşdirilir.

Təqsirləndirilən şəxs haqqında materiallara ilkin baxılması cinayət işi məhkəməyə daxil olduqdan sonra 15 (on beş) gün müddətində, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət məhkəməyə daxil olduqdan sonra 7 (yeddi) gün müddətində məhkəmə tərəfindən baxılmalıdır.

Göstərilən bu qayda Azərbaycan Respublikası CPM-nin 298-ci maddasi ilə rəsmiləşdirilmiş və qanun şəklində möhkəmləndirilmişdir.

Beləliklə, məhkəməyə göndərilən cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallar və xüsusi ittiham qaydasında şikayətlərə ilkin baxılmasının nəticələri obyektiv olaraq hərtərəfli yoxlamadan birbaşa məhkəmə baxışına verilə bilməz. Məhz, buna görə də daxil olmuş cinayət işləri üzrə təhqiqat-istintaq orqanlarında cinayət təqibinə məruz qalmış şəxsin ictimai-təhlükəli əməl törətməsinə dair lazımi sübutların toplandığı və məhkəmədə baxılması üçün işdə kifayət qədər

dəlillər olub-olmadığı ciddi surətdə yoxlanılmalı və məhkəmə baxışının predmeti dəqiq olaraq müəyyənləşdirilməlidir.

Birinci instansiya məhkəmələrində materiallara ilkin baxılmasının əsas və başlıca vəzifəsi ittiham aktı üzrə təqsirləndirilən şəxsin etdiyi əməlin ictimai-təhlükəli əməl olub-olmadığını, təhqiqatın və ibtidai araşdırmanın hərtərəfli, tam və obyektiv aparılıb-aparılmadığını, ağırlaşdırıcı və yüngülləşdirici halların aşkara çıxarılıb-çıxarılmadığını, təqsirləndirilən şəxsə istinad edilmiş əmələ dair toplapnmış sübutların cinayət işinin məhkəmə baxışına verilməsi üçün kifayət edib-etmədiyini, habelə təqsirləndirilən şəxs haqqında qətimkan tədbirinin qanunun tələbinə uyğun olaraq düzgün seçilib-seçilmədiyini, təqsirləndirilən şəxs haqqındakı ittiham aktının iş üzrə toplanmış sübutlar əsasında tərtib edilib-edilmədiyini və imbtidai araşdırma aparılarkən, hüquq normalarına əməl olunub-olunmadığını Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyi əsasında yoxlamaqdan ibarətdir.

Cinayət işləri üzrə ibtidai araşdırmada təqsirləndirilən şəxsə istinad edilən ictimai-təhlükəli əməl öz hüquqi və faktiki əksini, hər şeydən əvvəl, işə dair tərtib edilmiş ittiham aktında tapmalıdır. Əks halda, yəni, öz əksini ittiham aktında tapmayan ictimai-təhlükəli əməllər məhkəmə baxışının predmeti ola bilməz.

Lakin bunu da qeyd etməliyik ki, məhkəməyə daxil olmuş materiallara ilkin baxılma mərhələsində ibtidai araşdırmada təqsirləndirilən şəxsin təqsirliyini və ya təqsirsizliyini sözün əsl mənasında tədqiq olunmur. Ona görə ki, bu məsələ işə məsuliyyəti üzrə baxan məhkəmənin səlahiyyətinə aiddir və o, qərəzsiz, obyektiv, ədalətlilik və çəkişmədən ibarət olan prosessual prinsiplər əsasında məhkəmə prosesində araşdırılır və həll edilir.

Materiallara ilkin baxılma mərhələsi göründüyü kimi, cinayət prosesi sistemində ibtidai araşdırma mərhələsi ilə məhkəmə baxışı mərhələsi arasında keçid təşkil edən bir mərhələdir. Bu mərhələ ibtidai araşdırmanın

və təhqiqatın sonunu və məhkəmə baxışının başlanğıcını təşkil edir. Əgər materiallara ilkin baxılma mərhələsində cinayət işinin məhkəmə baxışına verilməsi haqqında qərar çıxarılarsa, iş üzrə təqsirləndirilən şəxs həmin vaxtdan etibarən məhkəməyə verilmiş hesab olunur.

Yuxarıda qeyd edildiyi kimi, cinayət prosesində materiallara ilkin baxılma mərhələsi heç də məhkəməyə verilən şəxs zaqqında ittihamedici və ya bəraətqazandırıcı hökm çıxarılması məsələsini qabaqcadan həll etmir. Prosesin bu mərhələsində ancaq işin xüsusatını əsasən, məhkəmə baxışında ittihamı rədd edə və onu əsaslandıra biləcək sübutların nə dərəcədə kifayət olub-olmadığı araşdırılır.

Birinci instansiya məhkəməsinə daxil olmuş cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət hakimlər arasında işlərin bərabər bölüşdürülməsi qaydasına riayət edilməklə, onlara baxmalı olan hakimə və ya hakimlərə verilir. Bu qaydalara müvafiq olaraq, məhkəməyə daxil olmuş bütün cinayət işlərinin və ya cinayət təqibi ilə bağlı digər materialların hakimlər arasında bölüşdürülməsi, onların icraatında olan işlərin və digər matieriallarin həcmi və miqdarı nəzərə alınmaqla aparılır.

Cinayət-prosessual qanunvericiliyi məhkəmənin icraatına müvafiq olaraq cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında hikayətin daxil olması və məhkəmənin hazırlıq iclasının keçirilməsi barədə məhkəmə təqsirləndirilən şəxsi, onun müdafiəçisinə, habelə dövlət ittihamçısına (cinayət təqibi ictimai və y a ictimai-xüsusi ittiham qaydasında aparıldıqda), zərər çəkmiş şəxsə, xüsusi ittihamçıya (cinayət təqibi xüsusi ittiham qaydasında aparıldıqda), mülki iddiaçıya, mülki cavabdehə və ya onların nümayəndələrinə məlumat vermənin qaydalarını 298-ci maddədə müəyyən etmişdir. Belə ki, cinayət işi üzrə məhkəmənin hazırlıq iclasının keçirilməsinə ən azı 7 (yeddi) gün qalmış müddətdə məhkəmə yuxarıda göstərilən şəxslərə müvafiq olaraq ittiham aktının surətini və bildiriş vərəqini göndərir. Məhkəməyədək

sadələşdirilmiş icraatın materiallarının nəticələrinə dair yekun protokolunun və ya xüsusi ittiham qaydasında şikayətin surəti və bildiriş vərəqi məhkəmənin hazırlıq iclasının keçirilməsinə Ən azı 3 (üç) gün qalmış müddətə zərər çəkmiş şəxsə və ya xüsusi ittihamçıya göndərilir.

Məhkəmənin bildiriş vərəqində aşağıdakı məzmunlu məlumatlar qeyd olunur: cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayətin daxil olması haqqında (təqsirləndirilən şəxsin soyadı, adı, atasının adı, ona qarşı irəli sürülmüş ittihamın mahiyyəti, habelə, məhkəmənin tərkibinə daxil olan hakimlərin soyadı və vəzifəsi); məhkəməyə vəsatət və ərizələrin göndərilməsi qaydası və müddətinin izahı daxil olmaqla, bildirişin göndərildiyi şəxsin hüquq və vəzifələrinin izahı haqqında qeydlər və məhkəmənin hazırlıq iclasında iştirak etmək üçün məhkəməyə gəlməyin vaxtı barədə məlumatlar verilir.

Məhkəmənin yuxarıda sadalanan ilkin hazırlıq hərəkətlərinin yerinə yetirilməsi ilə yanaşı, cinayət-prosessual qanunuvericiliyi hazırlıq iclası keçirilənədək, cinayət işinin, sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayətin baxılması üçün verilmiş olduğu hakimlərdən onlara daxil olmuş sənədləri, o cümlədən cinayət prosesinin tərəflərindən daxil olmuş əlavə sənədləri, vəsatət və ərizələri öyrənməyi tələb edir.

***1-ci sual üzrə nəticə:*** Nəticə etibarı ilə demək lazımdır ki, cinayət prosesində materiallara ilkin baxılma mərhələsinin mahiyyəti üzrə baxılan cinayət işinin obyektiv həlli üçün, prosessual əhəmiyyəti qasaca olaraq, aşağıda göstərilənlərdən ibarətdir:

1) materiallara ilkin baxılma mərhələsi məhkəmə baxışına yalnız kifayət qədər yoxlanılmış və araşdırılmış, etibarlı sübutlara əsaslanan və prosessual hüquq normalarının bütün tələblərinə əməl etməklə hərtərəfli, tam və obyektiv surətdə təhqiqat və ya istintaq edilən cinayət işlərinin verilməsini təmin edir;

2) materiallara ilkin baxılma mərhələsi məhkəmənin icraatına daxil olmuş cinayət işinə məhkəmənin hazırlıq iclasında obyektiv baxılması üçün, ibtidai araşdırma zamanı məsuliyyətə cəlb olunmuş təqsirləndirilən şəxsin təqsirini təsdiq edən kifayət qədər sübut olmadan, onun təqsirli bilinməməsi, yaxud da məhkəmə baxışına verilməməsi üçün və vətəndaşların əsassız olaraq məhəməyə verilməsinin qarşısının alınması üçün mühüm prosessual təminatdır.

***SUAL 2 . Məhkəmənin hazırlıq iclasında həll edilməli olan məsələlər***

Məhkəmənin hazırlıq iclası cinayət işində, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarında və ya xüsusi ittiham qaydasında şikayətlə irəli sürülmüş ittihamın mahiyyəti üzrə cinayət prosesi tərəflərinin iştirakı ilə məhkəmə baxışının təyin edilməsinin mümkünlüyünün yoxlanılması məqsədi ilə ilkin dinləmələrdən ibarətdir.

Hazırlıq iclasının keçirilməsi qaydası məhkəmə tərəfindən müəyyən olunur. Lakin məhkəmə cinayət prosesi tərəflərinin məhkəmənin hazırlıq iclasının keçirilməsi qaydasına dair təkliflərini nəzərə ala bilər.

Hər bir halda cinayət prosesi tərəflərinin iştirakı ilə məhkəmənin hazırlıq iclasında aşağıdakı məsələlərə baxılır (mad. 299.3 );

- məhkəməyə daxil olmuş cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarının və ya xüsusi ittiham qaydasında şikayətin ona aid olub-olmaması barədə;
- aparılmış ibtidai araşdırma zamanı CPM-nin tələblərinin pozulub-pozulmaması barədə;
- xüsusi ittiham qaydasında şikayətin məzmununun CPM-nin 293.3.1-293.3.7-ci maddələrinin müddəalarına uyğun olub-olmaması barədə;
- cinayət işi üzrə icraatın dayandırılması və ya ona xitam verilməsi üçün əsasların olub-olmaması barədə;
- cinayət işi üzrə qətimkan tədbirinin seçilməsi, dəyişdirilməsi və ya ləğv edilməsi üçün əsasları olub-olmaması barədə;

- ağır və ya xüsusilə ağır cinayətlərə dair cinayət işi üzrə məhkəmə baxışının andlı iclasçıların iştirakı ilə aparılması üçün əsasları olub-olmaması barədə.

Yuxarıda göstərilən məsələlər məhkəmə tərəfindən cinayət prosessual qanunvericiliyin tələbinə əsasən, iş üzrə təqsirləndirilən şəxslərdən hər biri haqqında həll edilməlidir. Yalnız göstərilən məsələlərə müsbət cavab alındıqdan sonra, məhkəmə baxışı təyin edilə bilər.

CPM-nin 299-cu maddəsinin tələbindən irəli gələn digər qrup məsələlərin də həll edilməsini qanun məhkəmələrdən tələb edir. Həmin qrup məsələlər öz xarakterinə görə 2-ci dərəcəli hesab olunurlar. Belə ki, məhkəmə hazırlıq iclası zamanı verilmiş vəsatət və etirazların təmin edilməsi və ya onların təmin edilməsinin rədd edilməsi barədə müraciətlərə baxır; ittiham və müdafiə tərəflərinin məhkəmə baxışı zamanı təqdim etdikləri sübutlar siyahısına öz fikrini bildirir; məhkəmə baxışından sübut kimi yolverilməz materialların xaric edilməsi barədə məsələni həll edir və müvafiq olaraq cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayətin sonrakı hərəkəti barədə məsələləri həll edir.

Qeyd etdiyimiz məsələlərin həllində cinayət prosesi tərəflərinin öz fikirlərini bildirmək hüququna malik olmalarını cinayət-prosessual qanunvericiliyi nəzərdə tutur.

Qeyd etmək lazımdır ki, məhkəmənin hazırlıq iclasının gedişatı zamanı göstərilən məsələlərin həllində proses iştirakçılarının öz fikirlərini sərbəst şəkildə bildirmək hüququ nəzərdə tutulur. Məsələn, əgər yazılı və ya şifahi formada daxil olan vəsatət və etirazlar həll edilirsə, onda cinayət prosesinin tərəflərinin prosesin hansı iştirakçısının vəsatətinə baxılmasından asılı olmayaraq, öz fikirlərini bildirmək hüququna malikdirlər. Məhkəmə vəsatəti rədd edərsə, həmin vəsatət məhkəmə baxışı zamanı təkrarən verilə bilər.

Məhkəmənin hazırlıq iclasının keçirilməsinə qoyulan tələblərdən biri də ardıcıllıqla müvafiq hərəkətlərin yerinə yetirilməsidir belə ki, dövlət ittihamçısı və ya xüsusi ittihamçı məhkəmə baxışı zamanı tədqiq etmək niyyətində olduqları müvafiq olaraq cinayət işi, sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə sübutlar siyahısını məhkəməyə təqdim edir; təqsirləndirilən şəxsin müdafiəçisi (onun köməyindən imtina edildiyi hallarda isə təqsirləndirilən şəxsin özü), habelə zərərçəkmiş şəxs, mülki iddiaçı, mülki cavabdeh şəxsən və ya öz nümayəndəsi vasitəsilə özlərinin qanuni mənafelərinin müdafiəçisi üçün əhəmiyyətli olan sübutlar siyahısını təqdim edir, hər hansı şəxsin (onların soyadlarını, adlarını, atalarının adlarını və yaşayış yerlərini göstərməklə) məhkəmə iclasına çağırılması və şahid qismində dindirilməsi haqqında vəsatətlər verir, onların göstərdikləri sübutların məhkəmədə hansı məqsədlə tədqiq edilməsini və onların vasitəsilə məhkəmə baxışı zamanı hansı halların müəyyən edilə biləcəyini izah edir.

Məhkəmənin hazırlıq iclası zamanı məhkəmə, yalnız işə aid olmayan və ya yolverilməz hesab etdiyi halda sübutların təqdim edilməsi ilə bağlı vəsatətləri rədd etmək hüququna malikdir.) Əgər sübut formal cəhətdən yol verilməli olan, lakin məhkəmə tərəfindən işə aid olmayan hesab edildikdə, mudafiə tərəfi onu məhkəməyə öz hesabına təqdim edə bilər.

CPM-nin 299-cu maddəsi xüsusi ittihamlı işlər üzrə məhkəmə iclasının keçirilmə qaydasını müəyyən edir. Belə ki, xüsusi ittihamçı üzürlü səbəblərin olmasını əvvəlcədən bildirmədən məhkəmənin hazırlıq iclasına təkrar gəlməməsi ittihamdan imtinaya bərabər tutulur və xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbul edlməsindən imtina barədə qərar çıxarılmasına məhkəməyə əsas verir.

Cinayət-prosessual qanunvericiliyi təqsirləndirilən şəxsin məhkəmənin hazırlıq iclasında iştirakışı zəruri hesab edir. Lakin qanun təqsirləndirilən şəxsin iştirakı olmadan məhkəmə iclasının keçirilməsinə iki halda yol verir: birinci halda təqsirləndirilən şəxs məhkəməyə gəlməkdən

imtina edərsə və ya boyun qaçırarsa, ikinci halda isə təqsirləndirilən şəxsin xahişi ilə qanunla işin qiyabi baxılmasına yol verilərsə (mad.299.9 ).

Məhkəmənin hazırlıq iclasında təqsirləndirilən şəxsin müdafiəçisinin iştirakını qanun məcburi hesab edir. Əgər müdafiəçinin təmsil etdiyi şəxs onun köməyindən imtina etmiş olarsa və ya onun cinayət prosesində məcburi iştirakını müəyyən edən hal mövcud deyilsə, müdafiəçi məhkəmənin hazırlıq iclasında iştiraka buraxılmır (CPM, mad.299.10).

Bir halı da qeyd etmək lazımdır ki, məhkəmənin hazırlıq iclası barədə vaxtında məlumat almış cinayət prosesi iştirakçılarının hazırlıq iclasına gəlməməsi həmin iclasın keçirilməsinə və müvafiq qərarın qəbul edilməsinə mane olmur.

Beləliklə, biz məhkəmənin hazırlıq iclasında həll edilməli olan məsələlərlə bütövlükdə tanış olduq. Hazırlıq iclasının keçirilmə qaydasını, iştirak edən şəxslərin dairəsini və onların hüquq və vəzifələri ilə tanış olduq. İndi isə məhkəmənin hazırlıq iclasında bəzi məsələlərin həlli qaydasını və onların sonrakı istiqamətini ayrı-ayrılıqda öyrənək.

### ***Xüsusi ittiham qaydasında şikayət üzrə məhkəmənin keçirilməsindən imtina edilməsi***

Cinayət-prosessual qanunvericiliyi xüsusi ittiham qaydasında şikayət üzrə məhkəmənin hazırlıq iclasında məhkəmə baxışının keçirilməsindən imtina etmənin əsaslarını 302-ci maddə ilə müəyyən etmişdir.

Həmin əsaslar aşağıdakılardır:

-şikayət həmin məhkəməyə aid olmadıqda;

-şikayət xüsusi ittiham qaydasında cinayət təqibinə hüququ olmayan şəxs tərəfindən verildikdə;

-əgər şikayət ərizəsində şəxsin soyadı, adı, atasının adı, doğulduğu il, yaşayış yeri və məşğuliyyət növü, vəzifəsi, cinayət qanunu ilə nəzərdə tutulmuş məhz hansı əməlin törədilməsi, onun harada, nə vaxt və necə törədildməsi, bu zaman zərər vurulmuşdursa, məhz hansı zərərin vurulduğu, o cümlədən maddi ziyanın məbləği, cinayət qanunu ilə nəzərdə

tutulmuş əməlin kim tərəfindən törədilməsi (şəxsin soyadı,adı,atasının adı və yaşayış yeri) və əməlin məhz həmin şəxs tərəfindən törədilməsinin nə ilə təsdiq edildiyi, şikayətdə göstərilən cinayətin törədilmə hallarının hansı şahid ifadələri ilə və konkret olaraq hansı şəxslərin ifadələri ilə (şəxsin soyadı, adı, atasının adı və yaşayış yeri), hansı sənədlərlə, habelə hansı digər sübutlarla təsdiq edildiyi, cinayət törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi haqqında xahiş, şikayətin tarixi (il,ay və gün) və yer, şikayəti vermiş şəxsin imzası yoxdursa;

-cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdiklə;

-barəsində xüsusi ittiham qaydasında şikayət verilmiş əməl ictimai və ya ictimai-xüsusi qaydada təqib edilməli olduqda;

-cinayət hadisəsi və ya barəsində xüsusi ittiham qaydasında şikayət verilmiş əməldə cinayət əlamətləri olmadıqda;

-şikayət əsassız olduqda və şikayət vermiş şəxsin dəlillərini təsdiq edən sübutları əks etdirmədikdə;

-şikayət vermiş şəxs şikayətindən imtina etdikdə və təqsirləndirilən şəxslə barışdıqda və ya məhkəmənin hazırlıq iclasına üzürlü səbəb olmadan təkrarən gəlmədikdə.

Məhkəmə xüsusi ittiham qaydasında şikayət üzrə məhkəmənin hazırlıq iclasının nəticələri əsasında məhkəmə baxışının keçirilməsində imtina edərək, aşağıdakılar barədə qərarlardan birini qəbul edir:

1) əgər məhkəmə hazırlıq iclasında xüsusi ittiham qaydasında daxil olan şikayətin həmin məhkəməyə aid olmadığını müəyyən edərsə, həmin şikayətin məhkəmə aidiyyatı üzrə göndərilməsi barədə qərar çıxarır.

2) məhkəmənin hazırlıq iclasında müəyyən edilsə ki, xüsusi ittiham qaydasında şikayət verilmiş əməl ictimai və ya ictimai xüsusi qaydada təqib edilməli olan əməldir, belə olan halda xüsusi ittiham qaydasında verilmiş şikayətin baxılması üçün istintaq aidiyyatı üzrə göndərilməsi barədə məhkəmə qərar çıxarır.

3) məhkəmə xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbul edilməsindən imtina edilməsi barədə qərarı aşağıdakı əsaslardan hər hansı biri mövcud olarsa, çıxarmağa haqlıdır:

3.1 şikayət xüsusi ittiham qaydasında cinayət təqibinə hüququ olmayan şəxs tərəfindən verildikdə;

3.2 şikayətin məzmunu cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun olmadıqda;

3.3 cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdikdə;

3.4 cinayət hadisəsi və ya barəsində xüsusi ittiham qaydasında şikayət verilmiş əməldə cinayət əlamətləri olmadıqda;

3.5 şikayət əsassız olduqda və şikayət vermiş şəxsin dəlillərini təsdiq edən sübutların əks etdirilməsi ilə və yaxud şikayət vermiş şəxs şikayətindən imtina etdikdə və təqsirləndirilən şəxslə barışdıqda və ya məhkəmənin hazırlıq iclasına üzürlü səbəb olmadan təkrarən gəlmədikdə.

Məhkəmənin hazırlıq iclasında həmin işin məhkəməyə aid olmadığını müəyyən etdikdə, belə qərarın qəbul edilməsinin hüquqi əsaslarını və işin göndərildiyi məhkəməni göstərməklə, məhkəmə cinayət işini məhkəmə aidiyyatı üzrə göndərilməsi barədə qərar çıxarır.

### ***Cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraatın materiallarının baxılmasına xitam verilməsi və onun prokurora qaytarılması (CPM, mad.303)***

Məhkəmənin hazırlıq iclasında məhkəməyədək icraat zamanı aradan qaldırılmadan müvafiq olaraq cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının mahiyyəti üzrə qanuni həll edilməsi mümkün olmayan kobud pozuntularına yol verildiyini müəyyən etdikdə, məhkəmə cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verir və onu ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarır.

Cinayət işi və ya sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verməməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi

həyata keçirən prokurora qaytarılması məhkəmənin əsaslandırılmış qərarı ilə həyata keçirilir.

Məhkəmənin hazırlıq iclasında cinayət işinin və ya sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması barədə qərar aşağıdakı kobud pozuntulara yol verildikdə çıxarılır (mad.303.3)

1) təqsirləndiriləş şəxsin müdafiə hüququnun pozulması;

2) cinayət-məhkəmə icraatının aparıldığı dili bilməyən təqsirləndirilən şəxsin ana dilindən və ya tərcüməçinin köməyindən istifadə etmək hüququnun pozulması;

3) məhkəməyədək icraat etiraz edilməlivə ya özü-özünə etiraz etməli olan şəxs tərəfindən aparılması;

4) cinayət işi üzrə ittiham aktının və ya məhkəməyədək sadələşdirilmiş icraatın nəticələrinə dair yekun protokolunun məhkəməyə təqdim olunmuş materiallarda olmaması;

5) ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən işi üzrə ittiham aktının və ya məhkəməyədək sadələşdirilmiş icraatın nəticələrinə dair yekun protokolunda ittihamın irəli sürülməsinin təsdiq edilməməsi;

6) cinayət işi üzrə ittiham aktının və ya məhkəməyədək sadələşdirilmiş icraatın nəticələrinə dair yekun protokolunun müvafiq olaraq CPM-nin 289 və 293.2-ci maddələrininvə ya 296.2-ci maddəsinin tələblərinə uyğun olmaması;

7) cinayət-mühakimə icraatının aparıldığı dili bilməyən təqsirləndirilən şəxsə ana dilində və ya bildiyi başqa dilə tərcümə olunmuş ittiham aktının surətinin verilməməsi;

8) məhkəməyədək icraat materialları ilə tanış etmə vəzifəsinə dair müvafiq olaraq CPM-nin 284-286, 288 və ya 296.3.1-ci maddələrin tələblərinin pozulması;

9) məhkəməyədək icraatın ibtidai istintaq şəklində aparılmasının məcburiliyinə dəlalət edən halların olmasına baxmayaraq, onun məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat formasında aparılması.

Cinayət-prosessual qanunvericiliyi cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması barədə qərarda belə qərarın çıxarılması üçün əsasların göstərilməsini məhkəmələrdən tələb edir.

***Cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın dayandırılması.***

Cinayət-prosessual qanunvericiliyi 304-cü maddədə məhkəmənin hazırlıq iclasında aşağıda sadalanan əsaslar müəyyən edildikdə, cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın dayandırılması haqqında əsaslandırılmış qərar çıxarıldığını müəyyən edir. Həmin əsaslar aşağıdakılardan ibarətdir:

1)təqsirləndirilmiş şəxs gizləndikdə və onun olduğu yer məlum olmadında;

2)təqsirləndirilmiş şəxs onun məhəkəmə baxışında iştirakını istisna edən ağır xəstəliyə tutulduqda;

3)Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin icraatında cinayət işi, məhkəməyədək icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat zamanı tətbiq edilmiş normativ-hüquqi aktın Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğunun yoxlanılması ilə bağlı sorğu olduqda.

Qanun müəyyən edir ki, məhkəmə icraatı müdafiə hüquqlarına xələl gətirməməsi şərtilə bir və ya bir neçə təqsirləndirilən şəxs barəsində dayandırıla bilər. Lakin təqsirləndirilən şəxs gizlədikdə və onun olduğu yer məlum olmadığı əsasa görə iş üzrə icraat dayandırıldığı hallarda isə həbsdə

olan digər təqsirləndirilən şəxs barəsində icraat uzadılmaması və hər bir halda 30 (otuz) gün müddətindən gec olmayaraq təzələnməlidir.

***Cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraata xitam verilməsi (mad.305)***

Cinayət-prosessual qanunvericiliyi məhkəmənin hazırlıq iclasında iş üzrə icraat xitam verilmə hallarını müəyyən edir. Belə ki, CPM-nin 305-ci maddəsində nəzərdə tutulur ki, əgər məhkəmənin hazırlıq iclasında «Cinayət təqibini istisna edən hallar» (CPM,mad.39) müəyyən edilərsə, məhkəmə cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraata xitam verilməsi haqqında əsaslandırılmış qərar çıxarır. Qanun bir halı da nəzərdə tutur ki, əgər cinayət təqibini istisna edən hallar ittihamın bir hissəsinə aid olarsa, onda iş üzrə yalnız bu hissədə xitam verilir.

Qanun məhkəmələrdən tələb edir ki, bu mərhələdə əgər iş üzrə icraata xitam verilirsə, bir sıra zəruri tədbirləri də həyata keçirsinlər. Belə ki, cinayət işi üzrə icraata xitam verilirsə, ibtidai istintaq mərhələsində qəbul edilmiş qətimkan tədbirlərinin və vurulmuş ziyanın ödənilməsinin təmin edilməsinə dair tədbirlər görsünlər. Əgər digər növ cinayət – prosessual məcburiyyət tədbirləri görülmüşsə, onlar ləğv edilməli və maddi sübutların taleyi barədə həll edilməklə, xitam qərarında öz əksini tapmalıdır.

***Qətimkan tədbiri ilə bağlı məsələlərin həll edilməsi (CPM, mad.306)***

Məhkəmənin hazırlıq iclasında iş üzrə seçilmiş qətimkan tədbiri ilə bağlı məsələləri məhkəmə həll etməklə, aşağıdakılara dair qərar çıxarır:

1) təqsirləndirilmiş şəxs bərəsində qətimkan tədbirinin tətbiq edilməsinin və ya edilməməsinin əsaslığı barədə;

2) qətimkan tədbirinin seçildiyi halda onun növünün əsaslılığı barədə;

3) təqsirləndirilmiş şəxs bərəsində seçilmiş qətimkan tədbirinin qüvvəsinin saxlanılması, dəyişdirilməsi və ya ləğv edilməsi haqqında.

Cinayət işinin baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması haqqında qərarı məhkəmə hazırlıq iclasında elan edir. Qərarı elan etdikdən sonra, məhkəmə Cinayət-prosessual Məcəllənin muddəalarına uyğun olaraq, aşağıda göstərilən hallar mövcud olduqda, təqsirləndirilmiş şəxs həbsdə saxlama müddətinin uzadılması barədə məsələyə baxmalıdır. Həmin hallardan biri ibtidai araşdırma zamanı təqsirləndirilmiş şəxs barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti cinayət işinin baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması haqqında qərarın çıxarıldığı andan 7 (yeddi) gün müddətində qurtardıqda;

- ikinci hal isə cinayət işi üzrə dövlət ittihamçısı təqsirləndirilmiş şəxsin həbsdə saxlama müddətinin uzadılması barədə vəsatətlə müraciət etdiyi hesab olunur.

Məhkəmənin hazırlıq iclasının nəticələrinə dair məhkəmə cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının nəticələrinə dair xüsusi qərar çıxarmağa səlahiyyətlidir. Bir qayda olaraq bu qayda CPM-nin 307-ci maddəsi ilə tənzimlənir və mühazirənin üçüncü sualında bu haqda ətraflı danışılacaq.

***2-ci sual üzrə nəticə:*** Mövzunun ikinci sualında məhkəmənin hazırlıq iclasında həll edilməli olan məsələlərin siyahısı ilə tanış olduq.

Ümumi bir qayda olaraq, cinayət prosesinin bu mərhələsində təqsirləndirilmiş şəxsi məhkəməyə vermək və məhkəmə baxışının təyin edilməsi haqqında kifayət qədər əsaslar olduğu müəyyən edildikdən sonra, cinayət-prosessual qanunvericiliyinə əsasən, məhkəmə tərəfindən işə məhkəmə iclasında baxılması haqqında məsələlər müzakirə olunur. Son nəticədə təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və məhkəmə baxışının təyin edilməsi haqqında qanuni qərar qəbul olunmasına şərait yaradılır.

### *SUAL 3. Məhkəmənin hazırlıq iclasının keçirilməsi nəticələrinə dair məhkəmə tərəfindən qəbul edilən qərarlar*

Cinayət-prosessual Məcələsinin 300-cü maddəsində məhkəmənin hazırlıq iclasının keçirilməsi nəticəsində qəbul edilən qərarların siyahısı göstərilmişdir. Baxılan işin mahiyyətindən asılı olaraq məhkəmə aşağıda qərarlardan birini qəbul edir:

1) təqsirləndirilmiş şəxsin məhkəməyə verilməsi və məhkəmə baxışının təyin edilməsi barədə;

2) xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbul edilməsi və məhkəmə baxışının təyin edilməsi barədə;

3) xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbul edilməsindən imtina olunması barədə;

4) müvafiq olaraq cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayətin məhkəmə aidiyyatı üzrə göndərilməsi barədə;

5) cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması barədə;

6) cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın dayandırılması barədə;

7) cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraata xitam verilməsi barədə.

Cinayət-prosessual qanunvericiliyi məhkəmələrdən bir sıra hərəkətlərin yerinə yetirilməsini tələb edir. Həmin hərəkətlər məhkəmənin qərar qəbul etməsi anına aid edilir. Belə ki, əgər məhkəmə təqsirləndirilmiş şəxsin məhkəməyə verilməsi və məhkəmə baxışının təyin edilməsi, cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun prokurora qaytarılması, yaxud da cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın dayandırılması barədə qərar qəbul edərsə, aşağıda göstərilən hərəkətləri də yetirməlidir:

- təqsirləndirilən şəxs barəsində qətimkan tədbirinin tətbiq edilməsinin və ya edilməsinin əsaslılığı barədə məsələyə baxmalı;

- qətimkan tədbiri seçildiyi halda onun növünün əsaslılığı və ya əsassızlığı barədə məsələni həll etməli;

- qətimkan tədbiri məsələsinə dair qərar çıxarmaq.

Məhkəmənin hazırlıq iclasında qəbul edilmiş qərarların surətləri qəbul edildikdən sonra, 3 (gün) müddətində aşağıdakı şəxslərə verilib (poçtla göndərilir):

1) təqsirləndirilmiş şəxsin məhkəməyə verilməsi və məhkəmə baxışının təyin edilməsi, xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbul edilməsindən imtina edilməsi və yaxud cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraatın materiallarının baxılmasına xitam verilməsi və onun prokurora qaytarılması barədə qərarlar çıxarıldıqda, təqsirləndirilmiş şəxsə, müdafiəçiyə, dövlət ittihamçısına, zərərçəkmiş şəxsə (xüsusi ittihamçıya), mülki iddiaçıya, mülki cavabdehə və ya onların nümayəndələrinə;

2) xüsusi ittihamqaydasında şikayətin öz icraatına qəbul edilməsi və məhkəmə baxışının təyin edilməsi, yaxud da xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbul edilməsindən imtina olunması

barədə qərarlar çıxarıldı, xüsusi ittihamçıya, barəsində şikayət verilmiş şəxsə və onların nümayəndələrinə.

Qanun məhkəmənin hazırlıq iclasının keçirilməsi nəticəsində qəbul edilmiş qərarlardan apellyasiya şikayəti və ya apellyasiya protestinin verilməsini də nəzərdə tutur. Belə ki, hazırlıq iclasında xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbul edilməsindən imtina olunması barədə qərardan, cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın dayandırılması haqqında qərardan, eləcə də cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraata xitam verilməsi barədə qəbul edilmiş qərarlardan CPM-nin 381,383 və 384-cü maddələrinə müvafiq olaraq apellyasiya şikayəti və ya apellyasiya protesti verilə bilər.

***Məhkəmə baxışının təyin edilməsi (CPM, mad.301)***

Məhkəmə baxışı məhkəmənin hazırlıq iclasının nəticələrinə dair məhkəmənin müvafiq qərarı ilə aşağıdakı hallarda təyin edilir:

1) cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarında və ya xüsusi ittiham qaydasında şikayətin materiallarında məhkəmə baxışının qeyri-mümkünlüyünə səbəb olan hallar olmadıqda;

2) ittiham aktının, məhkəməyədək sadələşdirilmiş icraatın nəticələrinə dair yekun protokolunda və ya xüsusi ittiham qaydasında şikayətin prosessual formasına riayət edildikdə;

3) məhkəməyədək icraat CPM-nin 303.3-cü maddəsində nəzərdə tutulmuş kobud pozuntulara yol verilmədən aparıldıqda.

Təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və məhkəmə baxışının təyin edilməsi haqqında qərarda aşağıdakılar göstərilməlidir: qərarın çıxarıldığı tarix, vaxt və yer, məhkəmənin adı və tərkibi (hər bir hakimin adı, soyadı və atasının adı), təqsirləndirilən şəxsin soyadı, adı və atasının adı, təqsirləndirilən şəxsə istinad edilən cinayət qanununun maddəsi üzrə tövsifi, qətimkan tədbirinin dəyişdirilmədən saxlanılması, ləğv

edilməsi, dəyişdirilməsi və ya seçilməsi və vurulmuş zərərin ödənilməsinin təmin edilməsi üçün tədbirlər görülməsi haqqında qərar, cinayət prosesi iştirakçılarının etirazlarının, vəsatətlərinin və digər ərizələrinin həlli, məhkəmənin tərkibi haqqında və müvafiq hallarda andlı iclasçılar kollegiyasının seçilməsində iştirak etmək üçün çağırılması olan andlı iclasçılarının sayının müəyyən edilməsi, təqsirləndirilən şəxs tərəfindən seçilmiş şəxsin müdafiəçi qismində işə buraxılması və ya təqsirləndirilən şəxsə müdafiəçinin təyin edilməsi, məhkəmə baxışı zamanı məhkəmə iclasına çağırılması olan şəxslərin siyahısı, qanunla işə qiyabi baxılmasına yol verildiyi hallarda təqsirləndirilən şəxsin iştirakı olmadan işə baxılmasının əsaslandırılması, məhkəmə baxışının yeri və vaxtı haqqında məlumatlar, CPM-də nəzərdə tutulmuş hallarda işə qapalı məhkəmə iclasında baxılmasının əsaslandırılması, cinayət-mühakimə icraatının dilinin seçilməsi halları qərarda mütləq öz əksini tapmışdır.

Xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbul edilməsi və məhkəmə baxışının təyin edilməsi haqqında qərarda CPM-nin 301.2.1-301.2.4; 301.2.6-301.2.12-ci maddələrində göstərilən müvafiq müddəalar əks etdirilməlidir.

Qanun məhkəmə baxışının təyin edilmə müddətini də nəzərdə tutur: (m.301.4)

a)cinayət işinə baxılması üçün məhkəmənin hazırlıq iclasının keçirildiyi andan 15 (on beş) gündən artıq olmayan müddətdə;

b)məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına və ya xüsusi ittiham qaydasında şikayətə baxılması üçün məhkəmənin hazırlıq iclasının keçirildiyi andan 7 (yeddi) gündən artıq olmayan müddətdə.

Məhkəmə baxışı təyin edildikdən sonra, məhkəmə iclasında sədrlik edən məhkəmə iclaslarının təşkili üzrə tədbirlərin görülməsi üçün məhkəmə aparatına zəruri göstərişlər verir. Məhkəmə baxışında iştirakı nəzərdə tutulmuş şəxslər CPM-nin 226-cı maddəsində göstərilmiş qaydalara uyğun olaraq məhkəmə iclasına çağırılırlar.

***Məhkəmənin hazırlıq iclasının nəticələrinə dair çıxarılan xüsusi qərar (CPM-si mad.307)***

Cinayət-prosessual qanunvericiliyi məhkəmənin hazırlıq iclasının nəticələrinə dair cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi yəyata keçirən prokurora qaytarılması haqqında qərarla, habelə cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraata xitam verilməsi haqqında qərarla yanaşı, məhkəməyədək icraat zamanı CPM-nin tələblərinin kobud surətdə pozulmasına yol vermiş şəxslər barəsində xüsusi qərar çıxarmalıdır.

Məhkəmənin xüsusi qərarında onun hansı cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə və kim tərəfindən çıxarıldığı qeyd edilməli, işin mahiyyəti, dəqiq olaraq, CPM-nin 303.3-ci maddəsində nəzərdə tutulmuş kobud pozuntulardan hansı pozuntu və kimin tərəfindən yol verildiyi ətraflı göstərilməlidir.

Məhkəmə tərəfindən çıxarılmış xüsusi qərar təsir tədbirlərinin görülməsi üçün aşağıdakı şəxslərə göndərilməlidir:

1)müstəntiq, təhqiqatçı və təhqiqat orqanının əməkdaşı barəsində-tabeçiliyindən asılı olaraq, Azərbaycan Respublikası müvafiq mərkəzi icra hakimiyyəti orqanının rəhbərinə;

2)ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və prokurorluğun müstəntiqi barəsində-Azərbaycan Respublikasının baş prokuroruna;

3)birinci instansiya məhkəmələrinin hakimləri barəsində - Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinə.

Məhkəmə qərarının ünvanlandığı vəzifəli şəxslər həmin qərar onlara daxil olduqdan sonra 30 (otuz) gündən olmayan müddətdə aşağıdakı hərəkətləri yerinə yetirməlidir:

1. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq kobud pozuntulara yol vermiş şəxslərin məsuliyyəti məsələsini həll etmək;

2. Görülmüş tədbirlər barədə məhkəməyə məlumat vermək.

***3-cü sual üzrə nəticə:*** Beləliklə, mövzunun 3-cü sualında nəzərdə tutulmuş hazırlıq iclasının keçirilmə nəticələrinə dair məhkəmə bir sıra qərarlar qəbul edir. Həmin qərarlar baxılan işin mahiyyətindən asılı olaraq, müxtəlif növ olurlar. Qəbul olunan qərarlarda işin sonrakı istiqaməti müəyyənləşdirilir və yaxud baxılan işdə cinayət-prosessual qanunvericiliyin kobud surətdə pozulması halları aşkar edilirsə, həmin şəxslərin ünvanına xüsusi qərar qəbul edilir. Məhkəmə hazırlıq iclasının keçirilmə nəticələrinə dair sonda qəbul etdiyi prosessual sənədlə öz işini bitmiş hesab edir və bundan sonra məhkəmə baxışının təyin edilməsi və keçirilməsinə dair təşkilati məsələlərin həllində keçir. Sadaladığımız işlərin hamısı ədalətli məhkəmə baxışının həyata keçirilməsinə şərait yaratmağa xidmət edir.

## *N Ə T İ C Ə*

Sizin nəzərinizə çatdırılan bu günki mühazirədə üç sualı müzakirə etdik. Belə ki, birinci sualda cinayət işlərinə, məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara və xüsusi ittiham qaydasında şikayətlərə ilkin baxılması mərhələsinin əhəmiyyəti, xüsusiyyətləri və məhkmələrə daxil olmuş cinayət işləri üzrə ilkin hərəkətlərin nədən olması ilə tanış olduq. Bu sualda cinayət işlərinin ilkin yoxlanılması qaydalarını öyrəndik və məhkəmə baxışının təyin edilməsi üçün rolunu müdavimlərin nəzərinə çatdırdıq.

Mövzunun 2-ci sualı məhkəmənin hazırlıq iclasında həll edilməli olan məsələlərə hərs edilmişdir. Qanun məhkəmələrdən tələb edir ki, məhkəməyə daxil olmuş bütün işlər üzrə bir sıra qrup məsələlər yoxlanılsın, bütün suallara müsbət cavab alınarsa, yalnız bundan sonra, baxılan cinayət işi məhkəmə baxışının predmet ola bilər. Baxdığımız sualda həll edilməli olan məsələlərin hər biri üzərində ayrı-ayrılıqda dayanmaqla, onların həlli qaydasını öyrəndik.

Mühazirə planının 3-cü sualı isə məhkəmənin hazırlıq iclasının keçirilməsi nəticələrinə dair qəbul edilən qərarlara həsr olunmuşdur. Bu sualda baxılan işin mahiyyətindən asılı olaraq, qəbul olunan qərarın ayrı-ayrı növləri üzərində dayandıq. Onların qəbul edilmə əsaslarını müzakirə etdik, tələb olunan prosessual tələblərin nədən ibarət olmasını qeyd etdik.

Məhkəmə tərəfindən Cinayət-prosessual Məcəlləsinin tələblərinin kobud surətdə pozulmasına yol vermiş şəxslərin ünvanına çıxarılan xüsusi qərarları müzakirə etdik.

Beləliklə, bu günki mövzu üzrə və seçilmiş suallara yekun vuraraq, qeyd etmək lazımdır ki, cinayət işləri, məhkəməyədək sadələşdilirmiş icraat materiallara və xüsusi ittiham qaydasında şikayətlərə ilkin baxılma mərhələləsinin təcrübi əhəmiyyəti yüksəkdir və hər polis əməkdaşının bu mərhələnin əhəmiyyəti rol oynadığını bilməsini məqsədəuyğun hesab edirik.